# İZAHAT VƏRƏQİ

«Atəşgah» Sığorta Şirkəti 2014-cü maliyyə ili üçün tərtib edilən hesabatlarla əlaqədar aşağıdakı zəruri izahatları təqdim edir.

Hesabat dövründə nizamnamə fondu 5 008.500,0 (beş milyon səkkiz min beş yuz) manat təşkil edir və nizamnamə fondunun formalaşması aşağıdakı kimidir:

(manat)

| Sıra sayı | Təsisçilər | Elan olunmuş nizamnamə kapitalının faizi | Elan olunmuş nizamnamə kapitalının Məbləği | Ödənilmiş nizamnamə kapitalının məbləği |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1 | ARDNŞ | 10% | 500850.00 | 500850.00 |
| | I.S.R. Holding limited | 63% | 3155355.00 | 3155355.00 |
| | Ran-Eksim MMC | 27% | 1352295.00 | 1352295.00 |
| | **CƏMİ** | **100%** | **5008500,00** | **5008500,00** |

31.12.2014-cü il tarixinə şirkətdə 301 nəfər əməkdaş çalışır.

Sığorta şirkətinin balansı Forma №1-Sığortaçı üzrə:

## Balansın aktiv hissəsi:

I.«Uzunmüddətli aktivlər» bölməsi:

1. **kodA1** «Torpaq, tikili və avadanlıqlarlardi» üzrə əks olunmuş 4513566,03 manat məbləğində 4 kateqoriyadan ibarətdir. Binalar tikililər 4126613,82 manat, Maşın və avadanlıqlar 186275,23 manat, Nəqliyyat vasitələri 69954,33 manat, Sair Əsas vəsaitlər 130722,65 manat.

2. **kodA4** «Qeyri-maddi aktivlərin siyahisi» üzrə əks olunmuş 357538,97 manat məbləğində 3 kategoriyadan ibarətdir. Lisenziya 152991,28 manat, Program təminatı 158606,57 manat, Sair QMA 45941.12 manat.
3. **Kod A10-A11** «Uzunmüddətli maliyyə qoyuluşları» üzrə əks olunmuş **201000,00** manat məbləğində vəsait, şirkətin törəmə təsərrüfat cəmiyyəti olan «İntermed-Assist» Məhdud Məsuliyyətli cəmiyyətinə investisiya qoyuluşundan ibarətdir;

II.«Qisamüddətli aktivlər» bölməsi:

1. **kodC3, kod C6** Debitor borclarinda "Birbaşa sığorta üzrə" və "Təkrarsığorta üzrə" təsnifatı Forma 14 verilib.
2. **kodC8** «Büdcə ilə hesablaşmalar» üzrə əks olunmuş **44799,60** manat məbləğ ödəmə mənbəyində tutulan verginin artıq ödənilmiş hissəsindən ibarətdir;
3. **kod C10** "İşçi heyəti" üzrə əks olunmuş **16495,61** manat işçilərə verilən borc məbləğindən ibarətdir;
4. **kod C12** «Sair debitorlarla hesablaşmalar» üzrə əks olunmuş **284306,26** manat vəsaitin reklam, tibbi müəssisələr, rabitə, auditor, təsərrüfat və sair debitorlardan ibarətdir;
5. **kod C13-C18** «Pul vəsaitləri və onların ekvivalentləri» kassa, bank, depozit hesablardan, yollarda olan pul vəsaitlərdən ibarətdir.
6. **kod C19** "Qısamüddətli maliyyə aktivləri" üzrə əks olunmuş **400000,00** manat AR MN tərəfindən reyestrə əsasən İSB-də iştirak üçün koçürülmüş investisiya qoyuluşundan ibarətdir.
7. **kod C27** «Gələcək dövr xərcləri» üzrə əks olunmuş **30018,68** manat məbləği əvvəlcədən verilmiş icarə haqqlarından ibarətdir;
8. **kod C30** "Sair aktivler" üzrə əks olunmuş **260167,52** manatın 156687.46 manat hissəsi bağlanmiş depozit müqavilələri üzrə hesablanan faiz gəlirlərinin hesabat iline duşən hissəsinden, qalan hissəsi isə yanacaq materiallarından, şirkət üçün sifariş edilmiş reklam məhsullarından, dəftərxana ləvazimatlarından, şirkət üçün lazım olan blanklardan və sair təsərrüfat vasitələrindən ibarətdir;

## Balansın passiv hissəsi:

II «**Kapital**» bölməsi:

1. **kod F5** « Yenidən qiymətləndirilmə üzrə ehtiyat» üzrə əks olunmuş **3039945,54** manatın 1397642,58 manat, şirkətin faktiki ünvanında yerləşən İFRS standartlarına uygun olaraq qiymətləndirilməsidir;
2. **kod F6** «Ehtiyat kapitaları» üzrə əks olunmuş **3039945,54** manat vəsaitin 1642302,96 manat Şirkətin nizamnaməsinə və səhmdarldarın ümumi yığıncağına əsasən illər üzrə balans mənfəətindən 5% ehtiyata ayırma məbləğindən ibarətdir;
3. **kod H2** Sığorta ehtiyatları bölməsi üzrə əks olunmuş **21187069,76** manat məbləğində vəsait sığorta üzrə qüvvədə olan normativ aktların tələblərinə uyğun olaraq yaradılmış ehtiyat məbləğlərindən ibarətdir;
4. **kod H19** «Təkrarsığorta əməliyyatları üzrə öhdəlikləri» bölməsində əks etdirilmiş **856131,96** manat məbləğində vəsait Təkrarsığortacı üzrə hesablanmış təkrarsığorta mükafatlarından və 4138,16 manat məbləğində vəsait Təkrarsığortalı üzrə hesablanmış təkrarsığorta mükafatlarından ibarətdir ;
5. **Kod J8** «Kreditor borcları» üzrə əks olunmuş 118785,99 manat məbləğində vəsaitin 38387,44 manatı 2014 cü ilin 4 rübü üzrə daxil olmuş sığorta haqqlarından AR MN-ə 0.3% ayirmadan, 80398,55 manatı isə icbari sığortalardan daxil olmalardan İSB-yə 5% ayırmadan ibarətdir;
6. **Kod J15** «Sairlər öhdəkliklər» üzrə əks etdirilmiş 154948.63 manat digər Şirkətə göstərilən xidmətlər üzrə digər kreditorlarla hesablaşmalardan ibarətdir.

**Rəhbər**

**M.Y.**

**Baş mühasib**